# Cinayətkarların həbsi beynəlxalq hüquqa da tamamilə uyğundur



**"Azərbaycanın rəşadətli ordusunun Qarabağda qanunsuz erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin nəticəsi xalqımız tərəfindən böyük qürur hissi ilə qarşılanır. Ordumuzun peşəkarlıqla həyata keçirdiyi bu tədbirlər sayəsində qarşı tərəf qısa müddətdə ağ bayraq qaldırmağa məcbur oldu. Antiterror tədbirlərindən sonra dövlətimiz öz suverenliyini tam təmin etdi".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, qazanılan bu zəfər Prezident İlham Əliyevin dəmir iradəsinin, qətiyyətinin və milli maraqlarımızı dönmədən qorumasının, eləcə də şanlı ordumuzun gücünün parlaq ifadəsidir. Hazırda dövlətimiz tərəfindən Qarabağ ərazisində nizam-intizam yaradılır, müvafiq qurumların əməkdaşları aidiyyəti üzrə öz vəzifələrini yerinə yetirirlər. Təəssüf ki, bu məsələdə Azərbaycana qarşı qarayaxma kampaniyası apararaq dövlətimizi "etnik təmizləmə"də ittiham etməyə çalışan bəzi ölkələr və beynəlxalq təşkilatlar var. Amma Azərbaycan öz qanuni addımları sayəsində beynəlxalq hüquqi prinsiplərə əməl etməsi ilə həmin iddiaların üstündən xətt çəkir.

S.Fətəliyeva xatırladıb ki, Azərbaycanın razılığı ilə BMT missiyası bölgədə monitorinq aparıb və missiyanın yaydığı məlumatda etnik təmizləmənin olmadığı, hökumətin Qarabağda səhiyyə və digər sahələrdə fəaliyyətə başladığı, heç bir mülki infrastruktura zərər dəymədiyi bildirilib. Missiyanın bu məlumatı Azərbaycanı ittiham edən xarici qüvvələrin niyyətini iflasa uğratdı.

Deputatın fikrincə, Ermənistan Qarabağ ermənilərindən istifadə edərək "etnik təmizləmə" şousu yaratmaq istəyir. Bununla da Azərbaycana qarşı beynəlxalq təzyiqlərin göstərilməsinə çalışır. Lakin bu cəhdlərin heç bir əhəmiyyəti yoxdur. Dövlətimiz Qarabağ ermənilərinin vətəndaşlıqla bağlı məsələlərini həll etmək üçün praktiki addımlar atır. Lakin bu, o demək deyil ki, Azərbaycan xalqına, ərazi bütövlüyümüzə qarşı cinayətlər törətmiş şəxslər cəzasız qalacaqlar.

Sevinc Fətəliyeva deyib ki, dövlətimizin güc strukturları bu istiqamətdə lazımi addımlar atır. Ruben Vardanyanın, qondarma rejimin "keçmiş prezidentləri" Arkadi Qukasyanın, Bako Sahakyanın, Arayik Harutyunyanın, daşnak Davit İşxanyanın, eləcə də bir neçə yüksəkrütbəli hərbçinin həbs edilməsi bunu təsdiqləyir. Onların arasında əli günahsız azərbaycanlıların qanına batmış cinayətkarlar var. Hazırda Ermənistan hakimiyyəti bu cinayətkarların həbs edilməsindən də "siyasi şou" düzəltməyə çalışır: "Amma heç nəyə nail ola bilməyəcəklər. Birincisi, Azərbaycan güclü dövlətdir, ona heç bir qüvvə nəyisə diktə edə bilməz. İkincisi də, həmin şəxslərin həbs olunması Azərbaycan qanunvericiliyi ilə yanaşı, beynəlxalq hüquqa da tamamilə uyğundur. Xalqımıza qarşı cinayət törədənlər, günahsız insanları qətlə yetirərək özlərinin "xoşbəxtliyini" qurduqlarını hesab edən bu canilər tarixi ədalətin öz yerini tutacağını düşünməliydilər. Artıq zaman o zamandır ki, onlar layiqli cəzalarını alacaqlar", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 7 oktyabr.- S.9.